# SƏRGİLƏR 2023

azpromo

Azərbaycan Respublikasının
İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

MADE IN
AZERBAIJAN



**MÜNDƏRİCAT**


Beynəlxalq Yaşıl Həftə ........ 2-3

Rusiya Halal Sərgisi ........ 4-5

Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisi ........ 6-7

Moskva Beynəlxalq Ərzaq Sərgisi ........ 8-9

Beynəlxalq Qida Sərgisi ........ 10-13

6-cı Çin Beynəlxalq İdxal Sərgisi ........ 14-15

Azərbaycan Respublikasının
İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

## MİSSİYAMIZ

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun əsas missiyası ölkəmizdə qeyri-neft sektorunun inkişafı, həmçinin istehsal olunan məhsulların xarici bazarlarda təşviqi ilə bağlı ölkə rəhbəri tərəfindən qarşıya qoyulmuş bir sıra hədəflərə nail olmaq məqsədilə xarici ölkələrdə müxtəlif beynəlxalq tədbirlər təşkil etmək, xarici alıcıları Azərbaycanda istehsal olunan məhsullar barədə məlumatlandırmaq və yerli şirkətlərlə əlaqələndirmək, eləcə də Azərbaycan Respublikasının investisiya mühiti haqqında ətraflı məlumat toplamaq istəyən və investisiya yatırmaqda maraqlı olan xarici şirkətlərə "vahid pəncərə" prinsipi əsasında xidmət göstərmək və dəstək verməkdir.

# BEYNƏLXALQ YAŞIL HƏFTƏ

## INTERNATIONAL GREEN WEEK

**Şəhər:** Berlin

**Tarix:** 24-29 yanvar

**Məkan:** "Messe Berlin" sərgi mərkəzi

**Sahə:** Qida, kənd təsərrüfatı və bağçılıq

**Sərgi haqqında:** Avropanın ən iri ərzaq sərgisi hesab olunan "Beynəlxalq Yaşıl Həftə"də Azərbaycan 13-cü dəfə təmsil olunub. Sərgidə 60 ölkədən 4 mindən çox şirkət iştirak edib.

**"Made in Azerbaijan" stendi:** Sərgidə şərab, qurudulmuş meyvələr, mineral sular, ət və ət məhsulları, duz, çay və qənnadı məmulatlarının istehsalı sahəsində fəaliyyət göstərən 15 Azərbaycan şirkəti "Made in Azerbaijan" vahid ölkə stendində öz məhsullarını nümayiş etdirib, sərgi ziyarətçilərinə milli mətbəximizin təamları təqdim olunub.


azpromo




7 2c




azpromo
7 2c
badamlı

# RUSİYA HALAL SƏRGİSİ

## RUSSIA HALAL EXPO

**Şəhər:** Kazan

**Tarix:** 18-19 may

**Məkan:** "Kazan Expo" Beynəlxalq Sərgi Mərkəzi

**Sahə:** "Halal" sənayesinə aid məhsul və xidmətlər

**Sərgi haqqında:** “Russia Halal Expo” sərgisi 14-cü "Rusiya – İslam dünyası: Kazan Forumu 2023" Beynəlxalq İqtisadi Forum çərçivəsində təşkil olunub. Sərginin məqsədi MDB və digər ölkələrin istehsalçılarına halal məhsulları və müxtəlif xidmətləri təqdim etməkdə, alıcı və satıcılara yeni satış bazarları və etibarlı təchizatçı tapmaqda dəstək olmaqdır.

**Azərbaycan stendi:** Stenddə sahibkarlar tərəfindən müxtəlif ət və ət məhsulları, narşərab, kompot, mürəbbə, çay və digər məhsul və xidmətlər təqdim edilib. Bununla yanaşı, stenddə AZPROMO, KOBİA, İZİA, 4SİM və Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanın investisiya imkanları, sahibkarlara göstərilən dəstək və xidmətlər, iqtisadi zonalarda yaradılmış əlverişli şərait, ölkəmizin turizm potensialı, 4-cü Sənaye İnqilabı texnologiyalarının tətbiqi və rəqəmsal iqtisadiyyatın inkişafı sahəsində həyata keçirilən təşəbbüslər barədə məlumat verilib, ziyarətçilərə müxtəlif çap materialları təqdim edilib. Eyni zamanda, stenddə işğaldan azad edilmiş Azərbaycan ərazilərində istahsal potensialı və investisiya qoyuluşu imkanları barədə də məlumat verilib, tematik videoçarxlar nümayiş olunub.


Türkiye
azpromo








Invest in Azerbaijan
azpromo



# ÇİN BEYNƏLXALQ XİDMƏTLƏR TİCARƏTİ SƏRGİSİ

## CHINA INTERNATIONAL FAIR FOR TRADE IN SERVICE – CIFTIS

**Şəhər:** Pekin

**Tarix:** 2-6 sentyabr

**Məkan:** Çin Milli Konqres Mərkəzi

**Sahə:** Xidmətlər ticarəti

**Sərgi haqqında:** 2012-ci ildən keçirilən CIFTIS sərgisinin əsas təşkilatçıları Çin Xalq Respublikasının Kommersiya Nazirliyi və Pekin meriyasıdır. Sərgidə 59 ölkə və 24 beynəlxalq təşkilat, eləcə də 2 400-dən çox şirkət öz məhsul və xidmətlərini stendlərdə nümayiş etdirib.

**"Invest in Azerbaijan" stendi:** Azərbaycan Pekində keçirilən sərgidə vahid ölkə stendi ilə beşinci dəfə iştirak edib. İKT, maliyyə, mədəniyyət və turizm, təhsil, idman, təchizat zənciri və biznes, layihə məsləhətçiliyi və tikinti, səhiyyə və ətraf mühit xidmətləri kimi bölmələrdən ibarət olan budəfəki sərgidə yer alan "Invest in Azerbaijan" vahid ölkə stendində ölkəmizin investisiya potensialı ilə yanaşı, keyfiyyətli və rəqabətqabiliyyətli məhsulları da nümayiş etdirilib. Stenddə sərgi iştirakçılarına AZPROMO, KOBİA, Ələt Azad İqtisadi Zonası, Azərbaycan İnvestisiya Şirkəti və Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti, biznesə göstərilən dəstək və xidmətlər, xarici investorlarla potensial əməkdaşlığa dair geniş məlumatlar təqdim olunub.


AZERBAIJAN









# MOSKVA BEYNƏLXALQ ƏRZAQ SƏRGİSİ

## WORLDFOOD MOSCOW

**Şəhər:** Moskva

**Tarix:** 19-22 sentyabr

**Məkan:** "Crocus Expo”

**Sahə:** Qida sənayesi

**Sərgi haqqında:** "WorldFood Moscow" Beynəlxalq Ərzaq Sərgisi istehsalçılar, xidmət tədarükçüləri, eləcə də pərakəndə və topdansatış ticarətindən, HoReCa seqmentindən alıcılar, həmçinin qida və içkilərin distributorları və ixracatçıları üçün ideal platforma hesab edilir. Ötən il sərgidə sahənin bütün kateqoriyalarını əhatə edən 16 bölmə təşkil olunmuşdur – alkoqollu və alkoqolsuz içkilər, dondurulmuş məhsullar, qənnadı məmulatları, konservlər, yağ və yağ məhsulları, süd məhsulları, ət, quş əti və yumurta, orqanik, balıq və dəniz məhsulları, meyvə-tərəvəz, halal sənayesinə aid məhsullar, çay, qəhvə və s. Sərgidə 39 ölkədən və Rusiya Federasiyasının 58 bölgəsindən 1 000-dən çox iştirakçı məhsul və xidmətlərini nümayiş etdirib.

**"Made in Azerbaijan" stendi:** Stenddə Azərbaycan şirkətlərinin istehsal etdiyi qida, meyvə-tərəvəz, şərab və digər alkoqollu içkilər, qurudulmuş meyvə, qənnadı məmulatları və digər məhsulların nümayiş olunub, milli mətbəx üzrə ustad dərsi keçirilib.


AZERBAIJAN







# BEYNƏLXALQ ƏRZAQ SƏRGİSİ

## ANUGA

**Şəhər:** Köln

**Tarix:** 7-11 oktyabr

**Məkan:** Köln Sərgi Mərkəzi (Koelnmesse)

**Sahə:** Qida sənayesi

**Sərgi haqqında:** İki ildən bir keçirilən "Anuga" sərgisi dünyanın ən böyük və ən mühüm ixtisaslaşmış ticarət sərgisidir. Sərginin əsas şüarı "Məhsulların keyfiyyəti və təhlükəsizliyi"dir. İlk "Anuga" sərgisi 1924-cü ildə keçirilib.

**"Made in Azerbaijan" stendi:** Stenddə Azərbaycan şirkətlərinin müxtəlif növ şərabları, fındıq, çay, quru meyvə, nar və meyvə şirələri nümayiş olunub. Şirkətlərdən başqa vahid ölkə stendində Azərbaycan Respublikasının Polşadakı Ticarət Evi, eləcə də Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası və Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası da təmsil olunub. Azərbaycan stendində sərgi ziyarətçilərinə ixracatçı şirkətlərin keyfiyyətli və rəqabətqabiliyyətli məhsulları, ölkəmizin biznes və investisiya imkanları barədə ətraflı məlumat verilib, yerli məhsulların dequstasiyası təşkil olunub.


AZERBAIJAN








taste estonia
saku

# 6-CI ÇİN BEYNƏLXALQ İDXAL SƏRGİSİ

## CHINA INTERNATIONAL IMPORT EXPO – CIIE

**Şəhər:** Şanxay

**Tarix:** 5-10 noyabr

**Məkan:** Milli Sərgi və Konqres Mərkəzi (NECC)

**Sahə:** Çoxsahəli

**Sərgi haqqında:** 2018-ci ildən keçirilən Çin Beynəlxalq İdxal Sərgisi dünyada ölkə səviyyəsində yeganə idxal sərgisidir. Ötənilki sərgiyə 154 ölkə və beynəlxalq təşkilatdan 3 400 iştirakçı, o cümlədən "Global Fortune 500" siyahısından 290-a yaxın şirkət qatılıb. Şanxay sərgisində 70-dən çox ölkənin milli stendləri ilə yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərin biznes stendləri də yer alıb. Azərbaycan sözügedən sərgidə iki stendlə təmsil olunub.

**Azərbaycan stendi:** Stenddə ölkəmizin turizm, innovasiya, "yaşıl" enerji, sənaye, kənd təsərrüfatı, mədəniyyət, xalçaçılıq kimi sahələrdə əldə olunmuş nailiyyətlər, perspektivlər, həmçinin ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, o cümlədən potensial investisiya layihələri nümayiş olunub.


AZERBAIJAN
MADE IN
AZERBAIJAN








MADE IN
AZERBAIJAN

# 6-CI ÇİN BEYNƏLXALQ İDXAL SƏRGİSİ

## CHINA INTERNATIONAL IMPORT EXPO – CIIE

**Şəhər:** Şanxay

**Tarix:** 5-10 noyabr

**Məkan:** Milli Sərgi və Konqres Mərkəzi (NECC)

**Sahə:** Çoxsahəli

**Sərgi haqqında:** 2018-ci ildən keçirilən Çin Beynəlxalq İdxal Sərgisi dünyada ölkə səviyyəsində yeganə idxal sərgisidir. Ötənilki sərgiyə 154 ölkə və beynəlxalq təşkilatdan 3 400 iştirakçı, o cümlədən "Global Fortune 500" siyahısından 290-a yaxın şirkət qatılıb. Şanxay sərgisində 70-dən çox ölkənin milli stendləri ilə yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərin biznes stendləri də yer alıb. Azərbaycan sözügedən sərgidə iki stendlə təmsil olunub.

**"Made in Azerbaijan" stendi:** Stenddə sərgi ziyarətçilərinə Azərbaycan şirkətlərinin istehsal etdikləri şərab, brendi və s. alkoqollu və alkoqolsuz içkilər, qənnadı məmulatları, fındıq, nar şirəsi, konservlər və digər məhsullar nümayiş olunub. Sərgidə stendin ziyarətçilərinə Azərbaycan məhsullarına dair kataloqlar təqdim edilib, məhsulların dequstasiyası keçirilib. Stenddə B2B görüşlər üçün ayrılmış xüsusi yerlərdə Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, məhsul ixracına dair müzakirələr aparıblar. Eyni zamanda, stenddə AZPROMO və KOBİA də təmsil olunub, ziyarətçilərə sahibkarlara göstərilən dəstək, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti barədə müvafiq çap materialları təqdim edilib.











azpromo

Azərbaycan Respublikasının
İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

T: +994 (12) 598 01 47/48

E: info@azpromo.gov.az

www.azpromo.az

Bakı Biznes Mərkəzi

Neftçilər pr. 32, Səbail, AZ1000